# Unudulmaz adlar



Azərbaycan iranşünaslıq məktəbi istər keçmiş Sovetlər Birliyinin şərqşünaslıq məktəblərində, istərsə də İran, Türkiyə, Hindistan, Pakistan və Ərəb ölkələri və Avropada kifayət qədər yaxşı tanınır. Bu məktəb Azərbaycanın görkəmli filosof, tarixçi, dilçi, mədəniyyətşünas şərqşünasları tərəfindən yaradılmış və uzun illər ərzində inkişaf etdirilmişdir. Bu məktəbi xatırlayarkən şərqşünas alimlərdən Mübariz Əlizadə, Rəhim Sultanov, Rüstəm Əliyev, Qəzənfər Əliyev və başqalarının adlarını yada salaraq onlarla fəxr edirik.

Bu məktəbin yaradıcıları və davamçıları sırasında elə alimlərimiz olub ki, onların adları o qədər də tez-tez hallanmır, halbuki onların iranşünaslığın, dilçiliyin, mədəni əlaqələrin inkişafında töhfələri heç də az olmamışdır və onların tədqiqat fəaliyyətləri, elmi nailiyyətləri öz aktuallığını və əhəmiyyətini bu günə qədər itirməmişdir. Belə alimlərdən biri də öz elmi əsərləri ilə iranşünas alimlər arasında və eləcə də Yaxın və Orta Şərqin problemləri ilə maraqlanan geniş elmi dairələrdə və oxucu auditoriyasında tanınmış və şöhrət tapmış professor Həsən Şıxmahmud oğlu Mahmudov olmuşdur.

Tək bunu qeyd etmək kifayətdir ki, bu şərqşünas alim nəinki Azərbaycanda, Sovetlər İttifaqı adlanan nəhəng bir ölkədə fars dili sintaksisi üzrə doktorluq dissertasiyası müdafiə etmiş ilk şərqşünas alim olmuşdur. Fars dilinin ən az öyrənilmiş və tədqiq edilmiş sahəsi olan sintaksisi əsas tədqiqat mənbəyi kimi seçmək son dərəcə dərin zəka, gözəl dil təfəkkürü tələb edən cəsarətli bir addım idi.

Lakin Həsən Mahmudovun elmi və pedaqoji fəaliyyəti yalnız fars dilinin sintaksisi ilə məhdudlaşmır. Onun fars dili qrammatikasının müxtəlif problemlərinə həsr olunmuş elmi məqalələri, dərs vəsaitləri, müxtəlif beynəlxalq konfrans və simpoziumlarda iranşünaslığın bu və ya digər məsələlərinə aid məruzə və çıxışları həqiqətən də ümumilikdə iranşünaslıq elminə və xüsusən də fars dilinin tədqiqi sahəsinə dəyərli bir töhfə idi.

Qeyd edək ki, Həsən Mahmudovun elmi fəaliyyəti, onun nəzəri tədqiqat dairəsi geniş və çoxşaxəli idi. Onun Azərbaycan şərqşünaslıq məktəbinin nümayəndəsi kimi İranda keçirilən və bu ölkədə yaşayan köçəri tayfaların tarixinə və müqəddəratına həsr edilmiş bir simpoziuma dəvət edilməsi və oradakı çıxışının alqışlarla qarşılanması buna bir sübutdur.

Həsən Mahmudov Azərbaycan şərqşünaslıq tarixində yalnız elmi-pedaqoji fəaliyyəti ilə deyil, həm də gözəl təşkilatçılıq qabiliyyəti, yüksək rəhbərlik fəaliyyəti ilə də yadda qalmışdır. Belə ki, universitetdə fars dili kafedrasında laborant olaraq fəaliyyətə başlamış Həsən Mahmudov öz elmi yüksəlişi, zəhmətkeşliyi, yüksək mənəvi dəyərlərə sahib olması nəticəsində Şərqşünaslıq fakültəsinin dekanı vəzifəsinə qədər yüksəlmiş, təxminən 13 il bu səlahiyyətli işini layiqincə yerinə yetirməklə yanaşı elmi-pedaqoji fəaliyyətini də inkişaf etdir-

mişdir. Şübhəsiz ki, ölkənin ən mötəbər ali məktəbində uzun illər fakültə dekanı kimi çalışması, haqqında danışdığımız alimin həm də gözəl təşkilatçılıq və rəhbərlik qabiliyyətinə malik olduğundan xəbər verir.

Həsən Mahmudov 1925-ci ildə Quba şəhərində anadan olmuşdur. Alim həmişə mənsub olduğu Şıxlar nəsli ilə fəxr etmişdir. O, məzarları Qafqaz Müsəlmanları Ruhani İdarəsi tərəfindən ziyarətgah kimi qeydə alınan köklü bir nəslin nümayəndəsidir. Elmə, müdrik sözə, adət-ənənələrə hörmət edən mühitdə, fars və ərəbdilli abidələrin əhatəsində böyümüş bir insanın sonralar Azərbaycanın tanınmış bir şərqşünası olması təsadüfi deyildi. Həsən Mahmudov 1941-ci ildə Quba şəhərində pedaqoji məktəbi əla qiymətlərlə başa vurduqdan sonra 1941-1944-cü illər ərzində Quba şəhərində orta məktəb müəllimi kimi fəaliyyət göstərir.

Lakin uşaqlıq illərindən şərq dillərinə və ədəbiyyatına aşılanmış istək və marağı onu əldə etdiyi pedaqoji təhsillə kifayətlənməyə qoymur. Gənc müəllim Bakıya gələrək 1946-cı ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin fars dili şöbəsinə daxil olur.

Şərqşünaslıq fakültəsində oxuduğu illər ərzində öz davranışı, özündən böyüklərə göstərdiyi hörmət, tələbə yoldaşları ilə ünsiyyət qurma bacarığı ilə seçilirdi. O, həqiqətən də, hələ tələbəlik illərindən gözəl təşkilatçılıq qabiliyyətinə malik olduğunu nümayiş etdirmişdi. Həmin illərdə şərqşünaslıq fakültəsində təhsil almış tələbələrin xatirələrində də Həsən müəllim son dərəcə çalışqan, tələbə yoldaşlarının köməyinə gəlməyə hazır olan, bütün asudə vaxtını da yalnız təhsilinə yönəldən bir gənc kimi xatırlanır. Hələ tələbə ikən fars dili kafedrasının laborantı vəzifəsinə təyin edilir və fakültə rəhbərliyinin etimadını doğrultmağa çalışır. Bu ona həm həyatını sərf etmək istədiyi bir sahəyə daha çox bağlanmaq, həm də ailəsinin qayğılarını yüngülləşdirmək imkanını verirdi. Çünki yenicə müharibədən çıxmış bir ölkədə yaşayan minlərlə ailə kimi həmin illərdə gənc tələbənin ailəsi də ciddi maddi çətinlik içərisində idi. Bu cür gərgin təhsil və əmək illəri nəticəsində 1951-ci ildə Şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirir və aspiranturada saxlanılmağa layiq görülür.

1954-cü ildə aspiranturanı bitirdikdən sonra o, “Müasir fars ədəbi dilində tamamlıqların feillə idarəsi” mövzusunda namizədlik dissertasiyasını müdafiə edir.

Bu dissertasiya nəinki Azərbaycan, hətta sovet şərqşünaslıq elmində fars dilinin tədqiqində yeni bir istiqamətin başlanğıcını qoydu. Dissertasiyada onun irəli sürdüyü elmi mülahizələr və gəldiyi nəticələr fars dili ilə məşğul olan alimlərin arasında yeni tədqiqatların yaranmasına səbəb oldu.

Namizədlik dissertasiyasından sonra gənc alim elm və əmək sahəsində pillə-pillə addımlayaraq əvvəlcə fars dili kafedrasında müəllim, sonra baş müəllim, daha sonra dosent kimi çalışır.

Alim Tehran, Moskva, Kiyev, Sank-Peterburq, Ufa, Düşənbə, Tbilisi və keçmiş Sovet İttifaqının başqa şəhərlərində keçirilən konfranslarda, simpoziumlarda, sessiyalarda Azərbaycan şərqşünaslıq məktəbini və Azərbaycan Dövlət Universitetini layiqincə təmsil edirdi.

Şərqşünaslıq fakültəsinin elmi, ictimai-siyasi həyatında yaxından iştirak edən Həsən müəllim 1965-ci ildə fakültənin dekanı vəzifəsinə təyin olunur və 1977-ci ilin sonuna qədər bu mötəbər və ağır işi yerinə yetirir. Dekan vəzifəsində çalışdığı müddətdə fakültədə dərs bölgüsü, müəllimlərin ixtisaslaşması, müəllim-tələbə ünsiyyəti, kafedralar arasında iş bölgüsü sahəsində nəzərə çarpan müsbət dəyişikliklər bu alimin öz vəzifəsinə ciddi yanaşması ilə bağlıdır. Onun rəhbərliyi dövründə fakültədə çalışan müəllim heyəti onu son dərəcə təvazökar, qayğıkeş, əməkdaşlarının və tələbələrinin problemləri ilə yaxından maraqlanan bir insan kimi yada salırdı. Təsadüfi deyil ki, həmin illər ərzində universitetin Şərqşünaslıq fakültəsinin məzunları içərisində sonralar ölkədə tanınmış alim və siyasi xadimlər olan şəxsiyyətlər yetişmişdir.

1965-1977-ci illərdə Həsən müəllim Şərqşünaslıq fakültəsinin dekanı olmaqla yanaşı, həm də universitetin “İran dilləri”, “Türk dilləri” və “Asiya xalqları ədəbiyyatı” ixtisasları üzrə Müdafiə Şurasının sədri olmuşdur. Həmin illərdə 30-dan çox namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmiş, 10-dan çox namizədlik və doktorluq dissertasiyasının elmi rəhbəri və rəsmi opponent məhz Həsən Mahmudov olmuşdur. Bundan əlavə o, müxtəlif illər ərzində respublikanın nəşriyyat orqanları tərəfindən İran dilçiliyinə həsr olunmuş bir çox kitaba ön söz yazıb, bir neçə kitabın elmi redaktoru olub.

Həsən Mahmudov 1983-cü ildə uzun illər üzərində işlədiyi tədqiqatını başa vuraraq SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda “Fars dilində sadə cümlələrin struktur tipləri və cümlə

üzvləri problemi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və məhz bununla da iranşünaslıq tarixində fars dili sintaksisi üzrə doktorluq dissertasiyası müdafiə etmiş ilk şərqşünas alim olmuşdur. Belə bir alimin və rəhbər işçinin o dövrün ən ali mükafatlarından olan "Lenin Yubiley Medalı", "Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı" ilə təltif olunması tam təbii idi.

Həsən Mahmudovun doktorluq dissertasiyası İran dilçiliyinin ən aktual nəzəri problemlərindən birinə, sadə cümlə sintaksisinə həsr olunmuşdu. O zamana qədər istər qərb, istərsə də sovet iranşünaslığında sırf bu mövzuya həsr olunmuş xüsusi bir tədqiqat əsəri yox idi. Dissertasiyanın bir tədqiqat obyekti kimi qarşıya qoyduğu məsələlər müəllif tərəfindən elmi əsaslarla və farsdilli ədəbi-bədii mənbələrdən götürülmüş 10 mindən artıq misallar üzərində şərh edilərək uğurla cavablandırılmışdır. Müəllif bir dissertasiya çərçivəsində fars dili sintaksisinin ümdə problemlərini (fars dilində predikativliyin ifadə vasitələri, cümlə növlərinin təyin edilməsi üçün struktur-qrammatik meyarların seçilməsi və bu meyarlara uyğun olaraq cüttərkibli və təktərkibli cümlə növlərinin müəyyənləşdirilməsi, fars dilində feli idarə mexanizmi) araşdırmışdır. Bu dissertasiyasının nə qədər önəmli və layiqli bir əsər olduğunu göstərmək üçün opponent qismində tanınmış iranşünas Yuri Aronoviç Rubinçikin çıxış etməsini qeyd etmək kifayətdir. Qeyd etmək lazımdır ki, Y.A.Rubinçikin fars dilinin sintaksis məsələlərinə dair elə bir monoqrafiyası, elmi əsəri, məruzə və çıxışı yoxdur ki, orada elmi fikirlərinə istinad etdiyi qrammatiklər sırasında Həsən Mahmudovun adı qeyd olunmasın.

Müdafiədən sonra alim "Fars dilində sadə cümlə sintaksisi" adlı monoqrafiya dərc etdirmişdir. Rus, İran, Qərbi Avropa alimlərinin əsərlərində fars dilinin tarixi, qədim fars dili, fars dilinin başqa İran dilləri arasında yeri, dilin fonetik və morfoloji quruluşu, sintaksisin ayrı-ayrı məsələlərinə böyük diqqət yetirilsə də, həmin əsərlərdə sadə cümlə xüsusi tədqiqat obyekti olmamışdır.

Həsən Mahmudov görkəmli rus şərqşünası L.S. Peysikovdan sonra fars dilçiliyində cüttərkibli və təktərkibli cümlələrdən bilavasitə danışan ikinci alim olmuşdur. O, bu monoqrafiyada fars dilində sadə cümlənin bütün növlərinin təsnifatını vermiş, cümlə üzvlərinin əlaqəsi, cümlədə söz sırası, fars və Azərbaycan dillərində cüttərkibli və təktərkibli cümlələrin qrammatik ifadə tərzində mövcud olan oxşarlıq kimi mühüm məsələləri dərindən araşdırmışdır.

Bundan başqa H.Mahmudov «Синтаксическая связь дополнений с глаголами в современном персидском языке» (1966) və "Синтаксис современного персидского языка»(1983) kimi daha iki monoqrafiyanın da müəllifidir.

Həsən Mahmudovun bu monoqrafiyalarına Azərbaycan Şərqşünaslıq məktəbinin ən tanınmış nümayəndələrindən olan professor Neyyər Zəman Hatəmi və Əhməd Şəfai müsbət rəy vermiş və onun elmi müddəalarını fars dili sintaksisinin tədqiqi sahəsində yeni ciddi mülahizələr kimi qiymətləndirmişdilər.

Alim adı çəkilən monoqrafiyalardan əlavə 50-dən artıq elmi əsərin - elmi məqalə, fars dili dərslikləri (7), dərs vəsaitlərinin müəllifidir. Elmi əsərləri Bakıda, Moskvada, Ufada, Tbilisidə, Düşənbədə Azərbaycan və rus dillərində, Münhendə (Almaniya), Tehranda (İran) fars dilində nəşr olunmuşdur:

Həsən müəllimin pedaqoji fəaliyyətindən danışarkən deyə bilərik ki, o, kafedramızın və fakültəmizin ən yaxşı müəllimlərindən idi. Həsən müəllim dərs dediyi tələbələrə fars dilinin incəliklərini öyrətmək üçün hər bir tələbəyə fərdi yanaşma üsulu tətbiq edir, lazım gəldiyi təqdirdə öz asudə vaxtı hesabına əlavə məşğələlər və hazırlaşmalar yolu ilə tələbələrin tədris edilən kursdan geri qalmamasını ciddi nəzarət altında saxlayırdı.

O, uzun illər kafedramızda İran filologiyası fənnini fars dilində tədris edən yeganə müəllim olmuşdur. Ümumiyyətlə, istər fars dilinin tarixini, istərsə də qədim, orta və müasir fars dillərinin qarşılıqlı tədrisini həyata keçirən yalnız bir neçə professorumuz olmuşdur. Bunlardan biri də məhz Həsən Mahmudov idi.

Onun istər elmi, pedaqoji, təşkilati fəaliyyəti, istərsə də İran dilçiliyi üçün kifayət qədər əhəmiyyətli olan elmi tədqiqatlarını nəzərə alsaq, deyə bilərik ki, Həsən Şıxmahmud oğlu Mahmudov Azərbaycan Şərqşünaslıq məktəbinin tarixinə öz adını həmişəlik yazdırmışdır.

**Mehdi Kazımov,**
*BDU-nun İran filologiyası kafedrasının müdiri, professor*
**Leyla Mahmudova,**
*dosent*